# Ali Baş Komandan HDQ-nin bir qrup üzvünün şəhadəti münasibətilə başsağlığı verdi - 12 /May/ 2020

Ali Baş Komandan Həzrət Ayətullah Xameneinin Ordunun baş komandanı general-mayor Seyid Əbdürrəhim Musəvi cənablarına göndərdiyi məktubda Konarak hərbi dəniz gəmisində baş vermiş hadisə zamanı Hərbi Dəniz Qüvvələrinin bir qrup üzvinin şəhid olması münasibətilə başsağlığı vermiş, Allahdan ürəyi dağlı ailələrə səbir və dözüm, xəsarət almış adamlara isə şəfa diləmişdir.

**İslam İnqilabının Ali Rəhbərinin məktubunun tam mətni:**

Mərhəmətli və Bağışlayan Allahın adı ilə

İran İslam Respublikası ordusunun baş komandanı general-mayor Musəvi cənablarına

Konarak gəmisində Hərbi Dəniz Qüvvələrinin bir qrup üzvünün şəhadəti ilə nəticələnən ağır faciə mənim üçün çox acı və təssüfedici idi. Baxmayaraq ki, onlar ağır və qürurverici bir xidməti vəzifəni yerinə yetirərkən həlak olublar, Allah tərəfindən savab və mükafatlarını da alacaqlar, inşallah. Lakin bu əzizlərin həyatlarını itirməsi onların ailələri üçün kədərli, çalışqan və səmimi gənclərin həlak olması Hərbi Dəniz Qüvvələri üçün böyük və ağır itgidir. Bu kədərli hadisənin qurbanlarının ailələrinə başsağlığı verir, Allahdan onlara səbir, yaralananlar üçün isə şəfa diləyirəm. Aidiyyatı qurumlardan bu hadisənin təfərrüatını düzgün araşdırılmasını və ehtimal olunan müqəssirləri müəyənləşdirərək lazimi tədbirlər görmələrini, bu cür acı hadisələrin təkrarlanmaması üçün lazımi tədbirlər görülməsini istəyirəm.

**Seyid Əli Xamenei**
**12 may 2020**

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**